

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 114 (21.266)

11 iyun 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətində səfərdə olmuşdur

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“İranla Azərbaycan arasında olan münasibətlər çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə bizim aramızda əməkdaşlığın əməli nəticələri vardır. Ümid edirəm ki, bu əməkdaşlıq daha da güclənəcəkdir”.***

Azərbaycan-İran əlaqələri qədim tarixə malikdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasındakı səmərəli əməkdaşlıq da bu əlaqələrə öz töhfəsini verir. İqtisadi-ticarət, kənd təsərrüfatı, enerji, təhsil və digər sahələrdə əlaqələrin mühüm əhəmiyyəti vardır. Son illər həyata keçirilən qarşılıqlı səfərlər isə ikitərəfli münasibətlərin inkişafı üçün geniş perspektivlər açmışdır.

Bu sahədə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin



Sədri Vasif Talıbov Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadənin dəvəti ilə iyunun 9-da İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinə səfər etmişdir.

Beynəlxalq Culfa sərhəd-keçid məntəqəsində Ali Məclis Sədrinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovulun rəisi Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri fəxri qarovul dəstəsinin önündən keçmiş və əsgərləri salamlamışdır.

Şərqi Azərbaycan ostandarının müavini Səid Şəbüstəri, Culfa fərmandarı Zahid Mahmudi və digər rəsmi şəxslər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qarşılamışlar.

Milli geyimli qız Ali Məclisin Sədrini salamladıqdan sonra Şərqi Azərbaycan Vilayətinin nümayəndə heyəti təqdim olunmuşdur.

## Şərqi Azərbaycan Ostandarlığında görüş

İyunun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərqi Azərbaycan Vilayətinin Təbriz şəhərindəki Ostandarlığına gəlmişdir.

Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə Ali Məclisin Sədrini qarşıladıqdan sonra nümayəndə heyətinin iştirakı ilə geniş tərkibdə görüş olmuşdur.

İsmayıl Cabbarzadə dəvəti qəbul edib Şərqi Azərbaycan Vilayətinə səfər etdiyinə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir. Ostandar əlaqələrin inkişafından danışmış, Şərqi Azərbaycan Vilayəti ilə Naxçıvan Muxtar Respublikası arasında mövcud olan əməkdaşlığın məmnunluq doğurduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, bu gün Şərqi Azərbaycan Vilayətində iqtisadiyyatın, xüsusilə sənayenin inkişafı sahəsində böyük potensial vardır. Yeni istehsal müəssisələrinin yaradılması, xarici investorların fəaliyyətinin dəstəklənməsi sahəsində müvafiq tədbirlər görülür. Mövcud iqtisadi imkanlar və göstərilən qarşılıqlı səylər münasibətlərin genişləndirilməsi üçün yeni imkanlar açır.

Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafının məmnunluq doğurduğunu bildirən İsmayıl Cabbarzadə bunu düzgün idarəetmənin nəticəsi kimi dəyərləndirmiş, Ali Məclis Sədrinin səfərinin müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün yeni perspektivlər açacağını qeyd etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərqi Azərbaycan Vilayətinə dəvətə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirərək demişdir: Azərbaycan-İran əlaqələrinin qurulması və inkişafında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri vardır. Bu gün dövlət başçılarının iradəsi ilə ikitərəfli münasibətlər yeni mərhələyə yüksəlmişdir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi Azərbaycan Vilayəti arasında da əlaqələr mehriban qonşuluq prinsipləri əsasında davam etdirilir. Təhsil, iqtisadi-ticarət, kənd təsərrüfatı və səhiyyə sahəsində səmərəli əməkdaşlıq mövcuddur. Gələcəkdə idman və mədəniyyət sahəsində əlaqələrin qurulması üçün də yaxşı potensial vardır.

Ali Məclisin Sədri əlaqələrin inkişafında qarşılıqlı səylərin əhəmiyyətini vurğulayaraq demişdir ki, muxtar respublikada iqtisadiyyatın inkişafında əsas yeri özəl bölmə tutur, yerli və xarici sahibkarların fəaliyyəti dəstəklənir, onlara güzəştli şərtlərlə kreditlər verilir. Bu da yeni istehsal müəssisələrinin yaradılmasına və xarici iqtisadi-ticarət əlaqələrin genişləndirilməsinə zəmin yaratmışdır.



Şərqi Azərbaycan Vilayətinin və Naxçıvan Muxtar Respublikasının sahibkarlarından ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, birgə fəaliyyətin dəstəklənməsi və müştərək istehsal sahələrinin yaradılması əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

Görüşdə hər iki tərəfin səyləri ilə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanmışdır.

Ali Məclisin Sədri Şərqi Azərbaycan Vilayətinin ostandarını münasib vaxtda Azərbaycanın Naxçıvan Muxtar Respublikasına səfərə dəvət etmişdir.

Sonra qarşılıqlı hədiyyələrin təqdimatı olmuşdur.

## Naxçıvan Muxtar Respublikasının və İranın qonşu vilayətlərinin dövlət sərhəd xidmətləri arasında səmərəli əməkdaşlıq vardır



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səfər çərçivəsində İranın Şərqi Azərbaycan Vilayətinin Sərhəd Qüvvələri komandiri Seyid Müctəba Musəvi ilə görüşmüşdür.

Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi Azərbaycan Vilayəti arasında digər sahələrlə yanaşı, sərhəd-keçid məntəqələrinin fəaliyyətinin gücləndirilməsinin vacibliyini vurğulayan Ali Məclisin Sədri hər iki tərəfin dövlət sərhəd xidmətləri əməkdaşlarının iştirakı ilə görüşlərin keçirilməsinin bu işə töhfə verəcəyini diqqətə çatdırmışdır.

İranın Şərqi Azərbaycan Vilayətinin Sərhəd Qüvvələri komandiri Seyid Müctəba Musəvi səmimi görüşə görə minnətdarlıq etmiş, Şərqi Azərbaycan Vilayəti ilə Naxçıvan Muxtar Respublikasının sərhəd xidmətləri arasındakı əlaqələrin hazırkı vəziyyətindən danışmışdır.

Görüşdə dövlət sərhəd xidmətləri arasında əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

* * *

Səfər çərçivəsində Şərqi Azərbaycan Vilayətinin Sənaye, Mədən və Ticarət Palatasının üzvləri və iş adamları ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov muxtar respublikada sahibkarlığın inkişafı və yeni istehsal müəssisələrinin yaradılması sahəsində görülən tədbirlərdən danışmış, muxtar respublikanın iqtisadi imkanları haqqında görüş iştirakçılarına ətraflı məlumat vermişdir.

Görüşdə sahibkarlar arasında əlaqələrin inkişaf perspektivlərinə toxunulmuş, hər iki tərəfin mövcud iqtisadi potensialından səmərəli istifadə ilə bağlı məsələlər müzakirə olunmuşdur.

## Təbriz Universiteti və Təbriz Tibb Universiteti ilə tanışlıq

Təbriz tarixən Şərqin qədim elm və təhsil mərkəzlərindən biri olmuşdur. Bu şəhərdə fəaliyyət göstərən ali təhsil ocaqları geniş imkanlara, tədris ənənələrinə və müasir maddi-texniki bazaya malikdirlər.

İyunun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Təbriz Universitetinə və Təbriz Tibb Universitetinə gəlmiş, hər iki ali təhsil müəssisəsinin tədris imkanları ilə maraqlanmışdır.

Təbriz Tibb Universitetində keçirilən görüşdə əvvəlcə Azərbaycan Respublikasının və İran İslam Respublikasının Dövlət himnləri səsləndirilmişdir.

Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə vilayətdə təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən bəhs etmiş, qarşılıqlı elmi əməkdaşlığın qurulmasında universitetlərarası əlaqələrin yaradılmasının əhəmiyyətini diqqətə çatdırmışdır.

Təbriz Universitetinin rektoru doktor Məhəmmədrza Pur Məhəmmədi ali təhsil ocağının fəaliyyəti barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, 1947-ci ildə yaradılan və Şərqi Azərbaycan Vilayətinin ən böyük ali təhsil ocaqlarından biri olan Təbriz Universitetində 20 fakültə fəaliyyət göstərir, 24 min tələbə təhsil alır. Müasir tədris metodlarından istifadə tələbələrin bilik səviyyələrini daha da artırır. Universitetdə Azərbaycanşünaslıq üzrə Tədqiqat və Araşdırmalar Mərkəzi fəaliyyət göstərir.

Ardı 2-ci səhifədə

Hazırda ali təhsil müəssisəsi dünyanın bir çox universitetləri ilə səmərəli tədris əlaqələrinə malikdir.

Təbriz Tibb Universitetinin rektoru doktor Məhəmməd Hüseyn Somi demişdir ki, Təbriz Tibb Universiteti tibbi kadrların hazırlanması ilə yanaşı, həm də elmi-tədqiqat və səhiyyə xidmətləri sahəsində səmərəli fəaliyyət göstərir. Ali təhsil müəssisəsində qidalanma, menecmentlik və tibbi informasiya, müasir tibb elmləri, farmakologiya, stomatologiya, reabilitasiya, tibb bacısı və mamalıq, gigiyena və digərləri olmaqla, 11 fakültədə 8 mindən artıq tələbə təhsil alır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov elm və təhsilin inkişafının, eləcə də bu sahədə qarşılıqlı əlaqələrin qurulmasının vacibliyini bildirərək demişdir: Muxtar respublikada təhsilin bütün pillələri, xüsusilə də ali təhsilin inkişafı təmin edilmiş, müasir tədris imkanları yaradılmışdır. Naxçıvan Dövlət Universitetinin dünyanın 100-ə yaxın universiteti ilə əlaqəsi vardır. Ali təhsil ocağında dünyanın bir çox ölkələrindən, o cümlədən İrandan olan 19 tələbə təhsil alır. Ən müasir informasiya texnologiyalarının tətbiq olunduğu universitetdə digər xarici dillərlə yanaşı, fars dili ixtisası da tədris olunur. Bu gün Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində həkim, Naxçıvan Tibb Kollecində isə orta ixtisas tibb kadrları hazırlanır. Eyni zamanda muxtar respublikada əhalinin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilir, bütün yaşayış məntəqələrində yeni səhiyyə müəssisələri tikilib istifadəyə verilir. Hazırda muxtar respublikada fəaliyyət göstərən müasir xəstəxanalar tibb təhsili alan tələbələr üçün geniş təcrübə imkanlarına malikdir.

Ali Məclisin Sədri muxtar respublikanın ali təhsil müəssisələri ilə Təbriz Tibb və Təbriz universitetləri arasında nümayəndə heyətlərinin iştirakı ilə qarşılıqlı səfərlərin təşkil edilməsinin və səmərəli elmi əməkdaşlığın yaradılmasının əhəmiyyətini diqqətə çatdırmış, bu təşəbbüsün birgə ixtisaslı kadrların hazırlanması işinə töhfə verəcəyinə əminliyini bildirmişdir.

## Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğu fəaliyyətini genişləndirir

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğuna gəlmiş, konsulluğun əməkdaşları ilə görüşmüş və onların iş şəraiti ilə maraqlanmışdır.

Bildirilmişdir ki, 2004-cü ildən fəaliyyət göstərən baş konsulluq ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verir. Hazırda siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində saxlanılır.

Ali Məclisin Sədri konsulluğun işçiləri ilə söhbət etmiş, iş şəraitlərinin yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlərin diqqətdə saxlanıldığını bildirmiş, onlarla xatirə şəkli çəkdirmişdir.



## "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair Memorandum" imzalanmışdır

İyunun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair Memorandum"u imzalamışlar.



Qarşılıqlı əlaqələrin və əməkdaşlığın bundan sonra da möhkəmləndirilməsini və daha da inkişaf etdirilməsini nəzərdə tutan memoranduma əsasən beynəlxalq statuslu Culfa-Culfa sərhəd buraxılış məntəqəsinin işinin səmərəliliyinin yüksəldilməsinə səy göstərilməsi, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında və İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətində istehsal olunan məhsulların qarşılıqlı təşviqinin və ticarətin təşkili, kənd təsərrüfatı sektorunun müxtəlif sahələri, o cümlədən əkinçilik, meyvə-tərəvəzçilik, balıqçılıq, arıçılıq, quşçuluq və digər sahələr üzrə təcrübə mübadiləsinin aparılması, bu sahələrdə iş adamlarının birgə fəaliyyətlərinin dəstəklənməsi haqqında razılığa gəlinmişdir.





Razılaşmaya əsasən, Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında və İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətində istehsal olunan məhsulların, həmçinin əl işləri və sənət əsərlərinin nümayiş olunduğu sərgilərdə hər iki tərəfdən nümayəndələrin iştirakına səy göstərilməsi, kənd təsərrüfatı, səhiyyə və sənaye sahələrində texniki-mühəndislik xidmətləri göstərməyə və texnologiyalar mübadiləsinin həyata keçirilməsinə şərait yaradılması, turizm sahəsində fəaliyyət göstərən təşkilatlar arasında əməkdaşlıq əlaqələrinin qurulması qərara alınmışdır. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının və İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin ali təhsil müəssisələri arasında qarşılıqlı fayda və səmərəlilik əsasında əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadilələrinin həyata keçirilməsi, eləcə də hər iki tərəfin alim və tədqiqatçılarının beynəlxalq elmi tədbirlərdə iştirak üçün dəvət olunması da memorandumda öz əksini tapmışdır.

Bununla yanaşı, idman sahəsində mövcud əlaqələrin möhkəmləndirilməsinə, idman federasiyalarının qarşılıqlı təcrübə mübadiləsinə, müxtəlif idman növləri üzrə yarışlarda komandaların iştirakına və yoldaşlıq görüşlərinin keçirilməsinə səy göstəriləcəkdir. Memorandumda Naxçıvan və Təbriz bələdiyyələri arasında əməkdaşlığın, səhiyyə sahəsində, xüsusilə müalicə turizmi, sanitar-epidemioloji sahələrdə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadilələrinin həyata keçirilməsi, beynəlxalq konfrans və elmi-praktik seminarların, eləcə də təkmilləşdirmə kurslarının təşkil edilməsi qərara alınmışdır.

İmzalanma mərasimindən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə kütləvi informasiya vasitələrinin nümayəndələrinə müsahibə vermişlər.

Jurnalistlərin suallarını cavablandıran Ali Məclisin Sədri qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulamış, "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayəti arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair Memorandum"un əlaqələrin inkişafına təkan verəcəyinə əminliyini ifadə etmişdir.

Sonda Şərqi Azərbaycan Vilayətinin Ostandarlığı qarşısında xatirə şəkli çəkdirilmişdir.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinə səfəri başa çatmışdır.

Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş konsulu Əli Əlizadə və İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrım səfər zamanı keçirilən görüşlərdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvandan başlanan milli qurtuluş

***Hər bir xalqın milli inkişaf yolunun müəyyənləşdirilməsində onu dünya miqyasında tanıdan, layiqli mövqelərə ucaldan liderlər əvəzsiz rola malikdir. Ensiklopedik zəka, intellekt, mənəvi güc, qüdrət sahibi olan ulu öndər Heydər Əliyev müdriklər müdriki idi. Azərbaycanın XX əsr tarixinin 60-cı illərindən başlayan dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. O, bu quruculuğa doğru gedən yola hələ 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlməzdən də əvvəl, XX yüzilliyin 40-cı illərindən başlamışdı. Bu illərdə Azərbaycanın hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan xalqımızın böyük oğlu Heydər Əliyev qarşıya çıxan bütün maneələri və çətinlikləri dəf edərək Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinədək ucalmışdı. Məhz Onun rəhbərliyində ilk dəfə olaraq xalqımızın layiqli övladlarının fəal surətdə təhlükəsizlik orqanlarında işə cəlb olunmasına başlanmışdı.***

XX yüzilliyin 60-cı illərinin sonunda dahi şəxsiyyət Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxşaxəli, qaynar fəaliyyət dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü müstəqil Azərbaycan ümummilli liderimiz Heydər Əliyev tərəfindən hələ o zaman qurulmuşdur. 1970-1985-ci illərdə, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılmış, milli iqtisadiyyatın əsası qoyulmuşdu. 213 iri sənaye müəssisəsi işə salınmış, bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan keçmiş ittifaqda aparıcı yerlərdən birini tutmuşdu. 1969-1982-ci illərdə 15 mindən çox azərbaycanlı tələbə SSRİ-nin qabaqcıl ali məktəblərində təhsil almağa göndərilmişdi. Müstəqillik dövründə Azərbaycanın yüksəkixtisaslı mütəxəssislər sarıdan çətinlik çəkməməsi, zəruri sosial-iqtisadi potensial məhz ulu öndərin respublikamıza 1969-1982-ci illərdə rəhbərliyi dövründə göstərdiyi misilsiz dövlətçilik fəaliyyətinin və milli siyasətin nəticəsidir. Görkəmli dövlət xadimi Heydər Əliyev 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunanadək Azərbaycanı artıq müstəqil bir dövlət kimi yaşamağa hazırlamışdı.

Təəssüflər olsun ki, müstəqillik ərəfəsində rəhbər vəzifələr tutanlar xəyanət yolunu seçərək, imperiya mənafeyinə uyğun siyasət həyata keçirmişlər. Məhz bu səbəbdən xalqımız XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpası prosesinə 1988-1990-cı illərin meydan eyforiyası, dərəbəyliyi, 1992-ci ilin "şanlı may inqilabının" sərməstliyi, 1993-cü ilin hakimiyyət böhranı və 1994-cü ilin oktyabr və 1995-ci ilin mart xəyanətkarlığından keçərək başlamışdır. Halbuki qurulmaqda olan müstəqil dövlətçiliyimiz, ilk növbədə, güclü liderə, milli ideoloji təməllərə, siyasi sabitliyə, sosial-iqtisadi bazaya, legitim siyasi-hüquqi sistemə dərin ehtiyac duyurdu.

Ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövr müstəqil Azərbaycanda dövlət quruculuğunun və xalqımızın qarşılaşdığı fəlakətlərdən qurtuluşunun başlanğıc mərhələsi kimi tarixə əbədi həkk olunmuşdur. Ermənilərin Azərbaycana qarşı təcavüzünün 1988-ci ildə başlanan son mərhələsi coğrafi cəhətdən ana vətəndən ayrı düşmüş Naxçıvanın blokadaya salınmasına səbəb olmuş, nəticədə, 1990-cı ildə ölkəmizin digər əraziləri ilə, hava nəqliyyatı istisna olmaqla, bütün kommunikasiya əlaqələri kəsilmişdi. Bu dövrdə Azərbaycanın və Naxçıvanın tarixi taleyində baş verən və taleyüklü dönüş nöqtəsi olan ən mühüm hadisə 1990-cı il iyulun 22-də ümummilli lider Heydər Əliyevin Moskvadan Naxçıvana qayıtması idi. Vətənin məşəqqətli və böhranlı günlərində öz xalqı ilə birlikdə olmaq üçün qayıdan görkəmli dövlət xadimi Heydər Əliyev 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə keçirilən seçkilərdə hər iki qanunverici orqanın deputatı seçilmişdir.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dahi rəhbər Heydər Əliyevin sədrliyi ilə keçirilən ilk sessiyasının qəbul etdiyi "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında", noyabrın 21-də qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında"kı tarixi qərarlar dərin zəkadan doğan siyasi uzaqgörənliyin aydın, bariz sübutu və müstəqil Azərbaycan dövlətçiliyinin bərpası istiqamətindəki ilk rəsmi addımlar idi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında deputatların təkidli xahişi və parlament binası önündə mitinq keçirən xalq kütlələrinin qəti tələbi ilə muxtar respublika Ali Məclisinin Sədri seçilən ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin yeni mərhələsi başlandı. Əslində, yalnız Naxçıvanın deyil, Azərbaycanın tarixində özünəməxsus yeri olan bu sessiya Heydər Əliyev dühasının parlaq təsdiqi, Onun Azərbaycanın hakimiyyət olimpinə yenidən yüksəlişinin başlanğıcı olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Dövlət müstəqilliyi haqqında" və "Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikası referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr və 15 noyabr 1991-ci il tarixli qanunvericilik aktlarına tərəfdar çıxması, "Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" Ali Məclisin 1991-ci il oktyabrın 26-da qəbul etdiyi qərar, habelə ulu öndər Heydər Əliyevin davamlı siyasi-diplomatik fəaliyyəti sübut edirdi ki, Onun üçün müstəqilliyimizin qorunması və əbədiləşdirilməsindən üstün heç bir məsələ yoxdur.

1991-ci il dekabrın 29-da keçirilmiş referendumda iştirak edən azərbaycanlıların 95 faizdən çoxu müstəqilliyimizin bərpasına tərəfdar çıxmışdır. Həmin il dekabrın 16-da Naxçıvan parlamentinin qəbul etdiyi "31 Dekabr – Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında" Qərarla 1989-cu ilin dekabrında baş vermiş sərhəd hərəkatı tariximizin daş yaddaşına bayram günü kimi həkk edilmişdir.

Azərbaycan Respublikası 1992-ci ilə müstəqil dövlət kimi qədəm qoysa da, respublikada gedən hakimiyyət çarpışmaları ermənilər tərəfindən Xocalı soyqırımının törədilməsinə şərait yaratmış, Şuşanın və Laçının asanlıqla işğalına səbəb olmuşdur. May ayının lap əvvəllərindən erməni silahlı birləşmələri Naxçıvana qarşı irimiqyaslı hərbi əməliyyatlara başlasa da, Naxçıvanda xalqla rəhbərliyin vəhdəti düşmənə rəşadətlə sinə gərərək torpaqları qoruyub saxlamağa kömək etmişdir. Bu dövrdə ümummilli lider Heydər Əliyev siyasi bacarığı, uğurlu diplomatik gedişləri və Türkiyə Cümhuriyyətinin rəhbərliyi ilə yaratdığı düşünülmüş əlaqələrlə Ermənistanın hərbi təcavüzünü dünya ictimaiyyətinin pisləməsinə, Naxçıvanın isə xilasına nail olmuşdur.

1992-ci ildə ulu öndər Heydər Əliyev Naxçıvanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra mühüm addımlar atmışdır. Onun qonşu Türkiyəyə və İrana səfərləri zamanı imzalanan iqtisadi-mədəni əməkdaşlıq barədə protokollar, Sədərək-Dilucu körpüsünün açılması, iki qardaş ölkə arasında əlaqələrin uzun illərdən sonra bərpa edilməsi sonrakı mərhələdə Naxçıvanın yalnız iqtisadi həyatında deyil, həmçinin siyasi həyatında da müstəsna rol oynamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi uzaqgörənliyi sayəsində atılmış bu addım Azərbaycanda yeni dövrün tələblərinə uyğun bu gün uğurla yekunlaşmış aqrar islahatların başlanğıc mərhələsi olmaqla, o zaman muxtar respublika iqtisadiyyatının aqrar sahəsinin tam məhvolma təhlükəsini aradan qaldırmışdır.

Ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi uğurlu dövlətçilik fəaliyyəti respublikanın ovaxtkı naşı rəhbərləri tərəfindən siyasi qısqanclıqla qarşılanırdı. 1992-ci il iyulun 15-də Azərbaycan Respublikasının Milli Məclisi Naxçıvandakı ağır sosial-iqtisadi vəziyyəti müzakirə edərək müvafiq qərar qəbul etsə də, onun həyata keçirilməsi Naxçıvana olan ögey və soyuq münasibət nəticəsində təmin edilməmiş, bu və digər qərarlar lüzumsuz kağız parçasına çevrilmişdi. 1992-ci il oktyabrın 24-də, Yeni Azərbaycan Partiyasının yaranması ərəfəsində, AXC-nin qanunsuz silahlı dəstələri Heydər Əliyevə qarşı ölkənin siyasi hakimiyyəti tərəfindən dəstəklənən uğursuz çevriliş cəhdi etdi. Hətta vəziyyət o yerə çatmışdı ki, Naxçıvanın XX əsrin əvvəllərindəki hərbi-siyasi hadisələr və tarixi-coğrafi amillərlə bağlı olan və beynəlxalq müqavilələrdə təsbit olunmuş muxtariyyət statusunu ləğv etmək təklifi irəli sürülürdü.

1993-cü il aprelin 2-də düşmənin Kəlbəcər rayonunu işğal etməsi, Azərbaycanın hərbi münaqişə bölgəsində mövqelərinin zəifləməsi ölkə rəhbərliyinin xalq arasında nüfuzdan düşməsi ilə nəticələnmişdi. Bütün bunlardan istifadə edən antimilli qüvvələr məkrli iddialarını həyata keçirmək üçün iyunun 4-də Gəncədə qiyam qaldıraraq öz silahlı dəstələri ilə dövlətə qarşı çıxmışdılar. Azərbaycan vətəndaş müharibəsinin astanasında, milli dövlətçiliyimiz məhvolma təhlükəsinin bir addımlığında idi. Belə bir mürəkkəb tarixi şəraitdə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Nazirlər Kabinetinin Rəyasət heyətləri 7 iyun 1993-cü il tarixdə birgə iclas keçirərək Gəncə hadisələrinə dair qəbul edilən müraciətlə baş vermiş hadisələri qardaş qırğını kimi qiymətləndirmiş, hamını milli birliyə, vətəndaş həmrəyliyinə çağırmışdır.

Tarixi zərurət – birbaşa xalqın tələbi, respublikada yaranmış böhranlı şərait, hakimiyyətsizlik və özbaşınalıq, ölkəmizin müstəqilliyi üçün real təhlükənin yaranması görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıtmasını zəruri etmişdi. Tarixə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyununda ulu öndər Heydər Əliyev Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkəmizi məhv olmaq təhlükəsindən qurtarmışdır. 1993-cü il oktyabrın 3-də və 1998-ci il oktyabrın 11-də ölkə Prezidenti seçilən qüdrətli siyasətçi Heydər Əliyev öz siyasi qüvvə və bacarığını Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq aləmin sivilizasiyalı, çağdaş və inkişaf etmiş dövlətləri sırasına çıxmasına, respublikamızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının çiçəklənməsinə sərf etmişdir. Məhz onun fenomenal şəxsiyyəti, müdrik siyasəti respublikadakı hərc-mərcliyi aradan qaldırmış, vətəndaş müharibəsinin, Azərbaycanın əyalətlərə parçalanmasının qarşısını almışdır.

*Beləliklə, 15 İyun – Milli Qurtuluş Günü ölkəmizin və xalqımızın nicatı, müstəqil dövlətçiliyimizin xilası və əbədilik varlığı mərhələsinin şanlı hadisəsi kimi müasir tariximizin yaddaşına həkk olunmuşdur. Yalnız istiqlaliyyət dövrünün deyil, eləcə də bütövlükdə XX əsr siyasi tariximizin çox mühüm hadisəsi olan 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qeyd etdiyi kimi:* ***"Bu, doğma Azərbaycan evimizin xilası, Azərbaycanın Azərbaycana qayıdışı günü idi. Xalqımızın milli qurtuluşu, vətəndaş qarşıdurmasından xilas olduğu gün idi".***

**Elman CƏFƏRLİ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru***

# Milli Qurtuluş Gününə həsr edilmiş tədbirlər keçirilib

Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu" mövzusunda tədbir keçirilib. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fazil Abbasov məruzə ilə çıxış edib.

Bildirilib ki, ümummilli liderimiz Heydər Əliyev müstəqil Azərbaycanın ən mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərlik məsuliyyətini öz üzərinə götürərək xilaskarlıq və quruculuq missiyasını yerinə yetirməklə tarixdə silinməz iz qoyub. 1993-cü ilin iyununda əldən getməkdə olan dövlət müstəqilliyini Azərbaycana dahi şəxsiyyət Heydər Əliyev qaytarıb. Dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalan ölkəmizi məhz ulu öndərimiz təlatümlər burulğanından xilas edib, möhkəm ictimai-siyasi sabitlik yaradıb, Azərbaycanı ötən əsrin 70-ci illərindən başlanan quruculuq xəttinə qaytararaq hərtərəfli inkişaf yoluna çıxarıb.

Vurğulanıb ki, qədirbilən Azərbaycan xalqı ümummilli liderimizin bu əvəzsiz xidmətlərini heç vaxt unutmayacaqdır. Ulu öndərimizin böyük ideyaları bu gün də Azərbaycanın yoluna nur saçır, xalqımızı xoşbəxt gələcəyə aparır. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ümummilli liderimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bu gün aparılan islahatlar, əldə edilən nailiyyətlər respublikamızı qüdrətli dövlətə çevirib.

Sonra məruzə ətrafında çıxışlar olub.

***Naxçıvan Dövlət Universitetində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşa gedən möhtəşəm zəfər yolu" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Konfransı giriş sözü ilə Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb. Rektor Milli Qurtuluş Gününün tarixi-siyasi əhəmiyyətindən danışıb. Bildirib ki, ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə gəlməklə Azərbaycanı dövlət müstəqilliyini itirmək, vətəndaş müharibəsi kimi faciələrdən xilas edib.

Qeyd olunub ki, ulu öndərin müdrik siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində Azərbaycan, o cümlədən Naxçıvan Muxtar Respublikası dinamik inkişaf yolundadır. Azərbaycan xalqı bundan sonra da Heydər Əliyev ideyalarını yaşadacaq, Onun layiqli siyasi varisi olan ölkə rəhbərinin uzaqgörən və məqsədyönlü siyasətini dəstəkləyəcək.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli "Naxçıvandan başlayan qurtuluş yolu" mövzusunda məruzə edib.

Konfrans iştirakçılarının diqqətinə çatdırılıb ki, 1990-cı il iyulun 22-də ümummilli lider Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışı zamanı muxtar respublikanın müxtəlif yerlərindən gəlmiş insanların Naxçıvan şəhərinin baş meydanında Onu yüksək coşqunluqla qarşılaması əhalinin dahi siyasi xadimə xilaskar kimi baxmasından irəli gəlirdi. O dövrdə Naxçıvandan başlanan dövlət quruculuğu prosesi, qəbul edilən qərarlar həm muxtar respublikanın taleyində, həm də bütövlükdə Azərbaycanın gələcək inkişafı üçün xüsusi rol oynayıb.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin başlanğıcı qoyulub, həmin gün müstəqillik tariximizə Milli Qurtuluş Günü kimi daxil olub.



Yeni Azərbaycan Partiyası universitet şəhərciyi ərazi ilk təşkilatının sədr müavini Şamxal Məmmədov "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu" mövzusunda məruzə edib.

Sonda konfrans iştirakçıları dünya şöhrətli siyasi xadim, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən filmə baxıblar.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Beynəlxalq Hava Limanında xidmət nümunəvi təşkil olunmuşdur




*Naxçıvan Muxtar Respublikasında hava nəqliyyatı müasir inkişaf dövrünü yaşayır. Hər ötən ay sərnişinlərə göstərilən xidmətin səviyyəsi yüksəldilir. Bu ilin may ayında görülən işlərə nəzər saldıqda bunun bir daha şahidi oluruq.*

Ötən ay muxtar respublikada yerli hava xətti ilə 18 min 150 sərnişin, 363 min 522 kiloqram baqaj, 79 min 58 kiloqram yük və 2 min 485 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq uçuşlar üzrə isə Naxçıvan-Moskva istiqamətində 228 sərnişin, 4 min 157 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 382 sərnişin və 4 min 967 kiloqram baqaj daşınmışdır.

Uçuşların təhlükəsizliyinin və sərnişinlərin rahatlığının təmin olunması xidmətin günün tələblərinə uyğun təşkilindən asılıdır. Buna görə də muxtar respublikanın mülki aviasiya işçiləri ötən ayda da öz vəzifələrini layiqincə icra etmişlər. Şəxsi heyət təyyarələrin, bütün maşın-mexanizmlərin və texnoloji avadanlıqların təlimata uyğun istismarını diqqətdə saxlamış, hava gəmilərinin hərəkəti nəticəsində uçuş-enmə zolağında və perronda baş verən aşınmalar təmir olunmuş, bəzi hissələrdə asfalt örtük yenilənmişdir.

Elektrik və işıq sistemləri ilə təminat da diqqət mərkəzində saxlanılmış, uçuşların və digər xidmətlərin fasiləsizliyi təmin olunmuşdur. Ay ərzində bütün növ güc transformatorlarına və işıqlandırma vasitələrinə baxış keçirilmiş, elektrik mühərrikləri təmir olunmuşdur. Yanğın təhlükəsizliyi və qəza-xilasetmə xidmətinin şəxsi heyəti yanğına qarşı təlimləri davam etdirmiş, obyektlərdəki yanğınsöndürmə avadanlıqları yoxlanılmışdır.

Ötən ay işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində də bir sıra işlər görülmüşdür. Belə ki, təhlükəsizlik xidməti işçiləri üçün Bakı şəhərində ixtisasartırma kursları davam etdirilmiş, əməkdaşlara aparılan yenidənqurma işləri çərçivəsində aerovağzal binasında yeni quraşdırılan cihazların iş prinsipləri öyrədilmiş, təhlükəsizlik texnikasına və yanğın mühafizəsinə aid məşğələlər keçirilmiş, hava gəmilərinə uçuşqabağı texniki baxış üçün təlimat hazırlanmışdır.

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***

## Sərnişin daşınması ilə məşğul olan sürücülər üçün seminar-müşavirə keçirilib

***Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə və lisenziyalaşdırma şöbəsinin müdiri Ramin Qəhrəmanov çıxış edib.***

Bildirilib ki, son illər Azərbaycan bir sıra beynəlxalq idman tədbirlərinə ev sahibliyi edib. 12-28 iyun tarixlərində keçiriləcək “Bakı-2015” Birinci Avropa Oyunları Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaqdır. Belə mühüm tədbirlərin keçirilməsi zamanı nəqliyyatçıların da üzərinə böyük məsuliyyət düşür. Ölkəmizə gələn turistlərin nəqliyyatın istənilən növündən səmərəli və təhlükəsiz şəkildə istifadə etməsi vacib məsələlərdən biridir.

Vurğulanıb ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılıb və müsbət nəticələr əldə edilib. Muxtar respublika rəhbərinin bu sahəyə diqqət və qayğısının nəticəsidir ki, ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınır, rayon mərkəzlərində yeni avtovağzallar tikilib istifadəyə verilir. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmalarının müasir tələblərə uyğun yerinə yetirilməsinə əlverişli şərait yaradıb.

Muxtar respublikaya gəliş-gediş üçün Naxçıvan Beynəlxalq Hava Limanından, Bakı-İran-Naxçıvan marşrutu ilə hərəkət edən avtobus və digər avtonəqliyyat vasitələrindən istifadə olunacaqdır. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, hava gəmilərindən istifadə digər nəqliyyat vasitələrindən çox olacaq. Bununla bağlı hava limanının taksi dayanacaqlarında fəaliyyət göstərən nəqliyyat vasitələrinin təmizliyi və təhlükəsizliyi müasir tələblər səviyyəsində olmalıdır. Oyunlar zamanı və oyunlardan sonra da turistlərin və ölkə vətəndaşlarının taksi, avtobus və mikroavtobuslardan təhlükəsiz istifadə etmələri daim diqqətdə saxlanılmalı, muxtar respublikamıza gələn qonaqların vaxtlı-vaxtında təhlükəsiz və rahat mənzil başına çatdırılması üçün mövcud imkanlardan səmərəli istifadə edilməlidir.



“Yol-nəqliyyat kompleksinin yenidən qurulması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, şəhər infrastrukturunun mühüm sahəsi sayılan sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün hər cür şərait yaradılıb”, – deyən şöbə müdiri qeyd edib ki, sərnişindaşıma xidmətini günün tələbləri səviyyəsində qurmaq üçün kompleks tədbirlər həyata keçirilib. Sərnişinlərin mənzil başına vaxtında və təhlükəsiz çatdırılması üçün hərtərəfli şərait yaradılıb. Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən sürücülərin intizam qaydalarına necə əməl etmələrini yoxlamaq məqsədilə reydlər keçirilib, qanun pozuntusuna yol verən sürücülər saxlanılaraq cəzalandırılıblar. Vergi borcunu ödəməyən, qanunsuz taksi fəaliyyəti ilə məşğul olan sürücülərə qeyri-qanuni sərnişindaşıma ilə məşğul olmamaları üçün xəbərdarlıqlar edilib, tabe olmayan sürücülər dövlət yol polisi əməkdaşları ilə birlikdə keçirilən reydlərdə saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb. Vurğulanıb ki, qarşıya qoyulan başlıca vəzifə avtomobillərin vaxtında texniki müayinədən keçirilməklə saz vəziyyətdə istismar olunmasından ibarətdir. Bu mühüm əhəmiyyətli sahə də diqqət mərkəzində saxlanılır, ayrı-ayrı rayonlarda reydlər keçirilir, avtonəqliyyat vasitələrində aşkar olunan nöqsan və çatışmazlıqlar aradan qaldırılır.

Nazirliyin Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzov bildirib ki, Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasını həyata keçirən sürücülərin intizam qaydalarına uyğun fəaliyyət göstərmələri mütəmadi olaraq nəzarətdə saxlanılır. Bu qaydalara əsasən, sərnişindaşıma hüququ müvafiq ixtisas tələblərinə və sağlamlıq vəziyyəti müvafiq normalara cavab verən fiziki şəxslərə verilir. Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq normativ-hüquqi aktlarla müəyyən olunmuş qaydada və formada verilmiş sənədlərlə təsdiq edilir. İctimai nəqliyyatda sərnişin daşınması ilə məşğul olan hər bir sürücünün idarə etdiyi avtomaşının fəaliyyət göstərməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsini təsdiq edən sənəd olmalı, sürücülük rekvizitləri qanunvericiliyin tələblərinə cavab verməlidir. Qeyd edilib ki, cari ilin ötən dövründə sərnişin və yük daşıyan fiziki, eləcə də hüquqi şəxslərin fəaliyyətinə nəzarət məqsədilə müxtəlif reydlər aparılıb, nəticədə, qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən avtonəqliyyat vasitəsi sahibləri aşkar olunaraq lisenziyaya cəlb edilib və ya intizama tabe olmayanlar haqqında cəza tədbiri görülmək üçün müvafiq orqanlara məlumatlar göndərilib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Kərəm HƏSƏNOV**

## Sağlam gənclik və sağlam gələcək naminə

Naxçıvan Dövlət Universitetində idmanın inkişafı və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.

Tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ölkədə, o cümlədən muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğıdan danışıb. Qeyd olunub ki, bu günlərdə başlayacaq “Bakı-2015” Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili Azərbaycanda idmanın inkişafına göstərilən diqqətin, ölkənin iqtisadi qüdrətinin təzahürüdür. Rektor Naxçıvan Dövlət Universitetində idmanın müxtəlif növlərinin inkişafı məqsədilə yaradılan maddi-texniki baza, gənclərin fiziki hazırlığı, hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində görülən işlər, ali məktəbin son illər idmanda qazandığı nailiyyətlər barədə məlumat verərək bildirib ki, idmanın inkişafı tələbələrin fiziki və mənəvi sağlamlığı, onların asudə vaxtlarının düzgün təşkili və zərərli vərdişlərdən çəkindirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Universitetin Fiziki tərbiyə və idman oyunları kafedrasının dosenti, tələbə idman klubunun sədri Məmmədəli Rəhimov ali təhsil müəssisəsinin idman uğurlarına nəzər salaraq xatırladıb ki, futbol, qızlardan ibarət badminton komandaları müxtəlif vaxtlarda Azərbaycan çempionu olub, tələbə idmançılarımız beynəlxalq yarışlarda, hətta dünya universiadasında uğurlu nəticələr göstəriblər. Birinci Avropa Oyunlarına vəsiqə qazanan ilk naxçıvanlı idmançı, boks üzrə Azərbaycan çempionu Tayfur Əliyev də məhz Naxçıvan Dövlət Universitetinin tələbəsidir.

Tədbirdə idman yarışlarının təşkili, birinci kurs tələbələrinin idmana cəlb olunması ilə bağlı məsələlər, mövcud problemlər də müzakirə olunub. Sonra müxtəlif idman yarışlarında qalib gəlmiş komandalara və idmançılara diplom və kuboklar təqdim edilib.

Rektor qələbə qazanan idmançıları təbrik edərək onlara ruh yüksəkliyi və əzmkarlıqla fəaliyyətlərini davam etdirməyi, daha böyük uğurlar qazanmağı arzulayıb.

**Mehriban SULTAN**

## Güləşçilər qüvvələrini sınayıblar

Babək rayon Nehrəm kənd 3 nömrəli tam orta məktəbdə Babək Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman İdarəsinin, Uşaq-gənclər idman məktəbinin və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası Babək rayon bölməsinin təşkilatçılığı ilə Milli Qurtuluş Gününə həsr olunmuş sərbəst güləş üzrə rayon turniri keçirilib. Turnirdə 6 komandada 90-dan çox güləşçi mübarizə aparıb.

Babək Rayon Uşaq-gənclər idman məktəbinin direktoru Füzuli Salmanov, Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı və Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Müslüm Vəliyev çıxış edərək ümummilli liderin həyat və fəaliyyətindən, muxtar respublikamızda idmana göstərilən diqqət və qayğıdan bəhs ediblər. Sonra yarışa start verilib.

Turnirin qalibi Nehrəm kəndinin komandası olub. İkinci yerə Zeynəddin, üçüncü yerə isə Şıxmahmud kəndlərinin komandaları layiq görülüblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

## Şahmat üzrə rayon birinciliyi

Şahbuz rayonunda 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat üzrə rayon birinciliyi keçirilib. 20 şahmatçı yarışda İsveçrə sistemi ilə 8 turda qüvvəsini sınayıb. Yarış başlamazdan əvvəl rayon Təhsil Şöbəsinin əməkdaşı Sahib Hüseynov, Gənclər və İdman İdarəsinin məsləhətçisi İdris Qəhrəmanov çıxış edərək ümummilli liderin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından, ölkəmizin sürətli inkişafından söhbət açıb və iştirakçılara uğurlar arzulayıblar.

Yarışın nəticələrinə görə, birinci yerə Nuray Quluzadə, ikinci yerə Vüsal Cabbarov, üçüncü yerə isə Hüseyn Hüseynli layiq görülüblər. Qaliblərə təşkilatçılar tərəfindən diplomlar və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, yarış Şahbuz Rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## “Naxçıvan” Universiteti “Enactus Azərbaycan” milli yarışının vitse-çempionu olub

***Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Bakı şəhərindəki Monolit Plazada “Bizim sahibkarlıq fəaliyyətimiz” (Enactus) X Azərbaycan milli yarışı keçirilib.***

Yarışın məqsədi gəncləri sahibkarlıq fəaliyyətinə təşviq etmək, tələbələrə azad sahibkarlıq ideyasını aşılamaq, onların təşkilatçılıq, idarəçilik və komandada işləmək bacarıqlarını inkişaf etdirməkdən ibarət olub.

Yarışda Azərbaycan Dövlət İqtisad, Dövlət Aqrar, Dövlət Mədəniyyət və İncəsənət, Texnologiya, Memarlıq və İnşaat, Gəncə Dövlət, Sumqayıt Dövlət, Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin komandaları iştirak ediblər. Tədbirdə çıxış edənlər “Enactus Azərbaycan”ın fəaliyyətindən danışıb, gənclərin fəallığını vurğulayıblar.

Sonra püşkatma mərasimi olub. Püşkatmadan sonra komandalar və “Enactus Azərbaycan”ın qonaqları birlikdə üç mövzu əsasında forum keçiriblər. Komandaların seçdikləri mövzu ətrafında müzakirələr olub.

Birinci liqa üzrə Azərbaycan Dövlət Aqrar Universiteti, Sumqayıt Dövlət Universiteti, ikinci liqa üzrə isə “Naxçıvan” Universiteti və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti finalda iştirak etmək hüququ qazanıblar.

“Naxçıvan” Universitetinin komandası iki layihə ilə çempionata qatılıb. Layihələrdən birincisi qədim xalq sənətimiz olan keçəçiliyin təbliği və yaşadılmasına xidmət edən “Güzəm”, digəri isə gözdən əlil vətəndaşlarımızın və bölgəmizə gələn turistlərin rahat hərəkətini tənzimləyən “Bələdçim” layihələri olub.

Azərbaycan ali məktəblərinin təqdim etdikləri layihələr içərisində “Ən yaxşı sosial layihə” üzrə “Naxçıvan” Universitetinin “Bələdçim” layihəsi nominasiyanın qalibi adını qazanıb, komandaya diplom təqdim edilib.

Enactus milli yarışının 10 illiyi münasibətilə “Naxçıvan” Universitetinin dekanı, komandanın məsləhətçisi, dosent Elbrus İsayevə “Enactus Azərbaycan”ın “Ən fəal məsləhətçi” nominasiyasının qalibi diplomu təqdim olunub.

Məlumat üçün qeyd edək ki, “Naxçıvan” Universitetinin “Enactus” komandası ötən tədris ilində yarışda “səsli kitab”, “ikili istehsal”, “yenilənən bərəkət” layihələri ilə çıxış etmiş, “Enactus” komandasının təqdim etdiyi “səsli kitab” layihəsi yarışda iştirak edən Azərbaycan ali təhsil müəssisələri içərisində “ən yaxşı biznes və sahibkarlıq yarışması tətbiq olunan layihə” nominasiyası üzrə təltif olunmuş və II yerə layiq görülmüşdü.

**Nuray ƏSGƏROVA**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 451